# Artilleriyaçılarımız "Artilleriya atəşinin ustaları" müsabiqəsini uğurla başa vurub





"Beynəlxalq Ordu Oyunları - 2021" yarışları çərçivəsində Qazaxıstan Respublikasının Qvardiya qarnizonunda keçirilən "Artilleriya atəşinin ustaları" müsabiqəsi başa çatıb.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, müsabiqədə doqquz ölkənin təmsilçiləri ilə yarışan artilleriyaçılarımız yüksək peşəkarlıq nümayiş etdirərək üçüncü yerə layiq görülüblər.

Qazaxıstan və Rusiya komandaları isə müvafiq olaraq ilk iki yeri paylaşıblar.

Qeyd edək ki, sentyabrın 2-də "Artilleriya atəşinin ustaları" müsabiqəsinin bağlanış mərasimi keçiriləcək.

Azərbaycan.- 2021.- 2 sentyabr.- S.4.